---

# STİMULLAŞDIRICI LOTEREYANIN UÇOTU

Azərbaycan Respublikasının «Lotereyalar haqqında» 5 mart 2004-cü il tarixli, 594-IIQ №-li Qanununun 2.0.2-ci maddəsinə əsasən stimullaşdırıcı lotereya - malın (işin, xidmətin) satışını stimullaşdırmaq məqsədilə həmin malı (işi, xidməti) almış şəxslər arasında keçirilən lotereya formasıdır. Beləliklə, stimullaşdırıcı lotereya xüsusi növ lotereya olmaqla hər hansı bir malın və ya xidmətin satışının stimullaşdırması məqsədini güdür.

Stimullaşdırıcı lotereyada iştirak üçün iştirakçı heç bir əlavə ödəniş etmir, uduş fondu isə stimullaşdırıcı lotereyanın təşkilatçısı tərəfindən formalaşdırılır. Stimullaşdırıcı lotereyanın iştirakçısı olmaq və uduş fondunun bir hissəsini əldə etmək üçün yalnız bu və ya digər malı və ya xidməti almaq kifayətdir, lotereyada iştirak isə bu zaman əlavə bonus kimi təklif edilir.

| Mühasibat yazılışı | | Əməliyyatın məzmunu | Məbləğ (manat) |
|---|---|---|---|
| Debet | Kredit | | |
| 201 «Material ehtiyatları» | 531 «Malsatan və podratçılara qısamüddətli kreditor borcları» | Stikerlər uçota alınır | 38.136 |
| 241 «Əvəzləşdirilən əlavə dəyər vergisi» | | ƏDV məbləği uçota alınır | 6.864 |
| 531 «Malsatan və podratçılara qısamüddətli kreditor borcları» | 223 «Bank hesablaşma hesabları» | Stikerlərin dəyəri ödənilmişdir | 38.136 |
| | 224-3 «ƏDV depozit hesabındakı sub-uçot hesab» | ƏDV məbləği özünün ƏDV sub-uçot hesabından «B» müəssisəsinin ƏDV sub-uçot hesabına köçürülmüşdür | 6.864 |
| 521 «Vergi öhdəlikləri» (ƏDV) | 241 «Əvəzləşdirilən əlavə dəyər vergisi» | Stikerlərin dəyərindəki ƏDV əvəzləşdirilir | 6.864 |
| 205 «Mallar» | 531 «Malsatan və podratçılara qısamüddətli kreditor borcları» | Əsas və həvəsləndirici uduşlar uçota alınır | 1.186,4<br>50.847 |
| 241 «Əvəzləşdirilən əlavə dəyər vergisi» | | ƏDV məbləği uçota alınır | 213,6<br>9.153 |
| 531 «Malsatan və podratçılara qısamüddətli kreditor borcları» | 223 «Bank hesablaşma hesabları» | Əsas və həvəsləndirici uduşların dəyəri ödənilmişdir | 1.186,4<br>50.847 |
| | 224-3 «ƏDV depozit hesabındakı sub-uçot hesab» | ƏDV məbləği özünün ƏDV sub-uçot hesabından «B» müəssisəsinin ƏDV sub-uçot hesabına köçürülmüşdür | 213,6<br>9.153 |

| | | | |
|---|---|---|---|
| 521 «Vergi öhdəlikləri» (ƏDV) | 241 «Əvəz- ləşdirilən əlavə dəyər vergisi» | Uduşların dəyərindəki ƏDV əvəzləşdirilir | 213,6<br>9.153 |
| 711 «Kommersiya xərcləri» | 201 «Material ehtiyatları» | Aksiyada iştirak edən məhsulların üzərinə yapışdırılan stikerlərin dəyəri uçota alınır | 38.136 |

Stimullaşdırıcı lotereyanın əsas məqsədi satış həcminin artırılması yolu ilə gəlirin artırılmasıdır. Konkret məqsəd kimi hər hansı bir markanın (brendin) tanınması, malın yeni bir regiona çıxarılması, məqsədli alıcı qruplarının cəlb edilməsi, yeni reklam kompaniyasının başlanması və s. ilə bağlı ola bilər. Beləliklə, müəssisə tərəfindən həyata keçirilən stimullaşdırıcı lotereyaya reklam kimi baxılmalıdır; çünki Azərbaycan Respublikasının «Reklam haqqında» Qanununun 2.0.1-ci maddəsinə əsasən reklam dedikdə fiziki və hüquqi şəxslər, əmtəə, ideya və yeniliklər (reklam informasiyası) haqqında maraq formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan informasiya başa düşülür.

Beləliklə, stimullaşdırıcı lotereyanın keçirilməsinə çəkilən xərclərinə mənfəət vergisi məqsədləri üçün reklam xərcləri kimi baxmaq lazımdır, çünki, yuxanda qeyd olunduğu kimi, bu lotereyanın məqsədi malın və ya xidmətin satışının artırılması və yeni müştərilərin cəlb edilməsindən ibarətdir.

Reklam məqsədləri üçün əvəzsiz olaraq verilən mallar əlavə dəyər vergisinin məqsədləri üçün vergi tutulma obyektidir. Bu zaman vergi bazası həmin malların bazar qiyməti ilə müəyyənləşdirilir.

***Misal.***

*«A» müəssisəsi satışın həcmini artırmaq üçün stimullaşdırıcı lotereya keçirir. Bu məqsədlə, şirkətin məhsulunun üzərinə üzərində nömrəsi olan stiker yapışdırılır və həmin nömrə lotereyada iştirak edir. Stikerlərin hazırlanmasına 45.000 manat (o cümlədən ƏDV - 6.864 anat) xərc çəkilir. Əsas uduşun (televizor) dəyəri 1.400 anatdır (o cümlədən ƏDV - 213,6 manat). Cəmi həvəsləndirici uduşların dəyəri 60.000 manatdır (o cümlədən ƏDV - 9.153 manat). Hər bir həvəsləndirici uduşun dəyəri 400 manatdan artıq deyildir.*

*Stikerlərin dəyəri 201 «Material ehtiyatları» hesabında uçota alınır və sonradan maya dəyərinə -711 «Kommersiya xərcləri» hesabının debetinə silinir.*

Stimullaşdırıcı lotereya başa çatandan sonra mühasibat uçotunda aşağıdakı yazılışlar edilir:

| **Mühasibat yazılışı** | | **Əməliyyatın məzmunu** | **Məbləğ (manat)** |
|---|---|---|---|
| **Debet** | **Kredit** | | |
| 711 «Kommersiya xərcləri» | 205 «Mallar» | Verilmiş uduşlar silinir | 1.186,4<br>50.847 |
| 341 «Hesabat dövründə xalis mənfəət (zərər)» | 521 «Vergi öhdəlikləri» (ƏDV) | Verilmiş əsas və həvəsləndirici uduşların dəyərindən ƏDV hesablanmışdır | 213,6<br>9.153 |